# AKADEMİK HÜQUQİ YAZI KİTABÇASI

Bakı Dövlət Universiteti
Tələbə Hüquq Jurnalı

# AKADEMİK HÜQUQİ YAZI KİTABÇASI

**ELMİ REDAKTOR**

*Zaur Əliyev*, BDU Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent.

**MÜƏLLİFLƏR**

*Mansur Səmədov*, BDU Hüquq fakültəsi, 4-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Baş Redaktoru.

*Gülçin Məmmədyarova*, BDU Hüquq fakültəsi, 4-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının İcraçı Redaktoru.

*Camal Əzimov*, BDU "SABAH Qrupları" hüquqşünaslıq ixtisası, 3-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Məsul Redaktoru.

*Sezər Allahverdiyev*, BDU "SABAH Qrupları" hüquqşünaslıq ixtisası, 3-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Redaktoru.

*Fidan Musayeva*, Bakı Dövlət Universiteti Hüquq fakültəsi, 3-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Redaktoru.

*İlkin Bayramov*, Bakı Dövlət Universiteti Hüquq fakültəsi, 3-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Redaktoru.

**REDAKTORLAR**

*Xədicə Abbasova*, Bakı Dövlət Universiteti Hüquq fakültəsi, 3-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Redaktoru.

*Samir Nəcəfov*, Bakı Dövlət Universiteti Hüquq fakültəsi, 3-cü kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Redaktoru.

*Gülnar Fərzəliyeva*, Bakı Dövlət Universiteti Hüquq fakültəsi, 2-ci kurs tələbəsi, Tələbə Hüquq Jurnalının 10-cu Buraxılışının Redaktoru.

© 2024, Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı.
Bu əsər Bakı Dövlət Universiteti Hüquq fakültəsi Elmi Şurasının qərarı ilə çap edilmişdir. Əsərin şəxsi, qeyri-kommersiya məqsədləri üçün istifadəsinə, habelə təhsil məqsədləri üçün çapına və çoxaldılmasına icazə verilir. Bu nəşrin Elmi Redaktorunun yazılı razılığı olmadan bu əsərin kommersiya məqsədləri üçün hər hansı istifadəsi, o cümlədən kommersiya çapı, çoxaldılması və ya yayılması qəti qadağandır.

# Ön söz

Hüquq jurnalları elmə verdikləri töhfələr ilə ölkə sərhədlərini aşaraq beynəlxalq sferada hüquqi müzakirənin bir parçasına çevrilir. Fəxrlə qeyd edirik ki, bu sferada öz yerini almış Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalının da səsi Azərbaycandan ucalaraq "Scopus" və "HeinOnline" kimi nüfuzlu elmi məlumat bazalarında əks-səda verir. Fəaliyyətə başladığı 2014-cü ildən bəri Jurnalın əsas məqsədi hüquq cəmiyyətinə həm elmi, həm də praktiki müstəvidə yaradıcı düşüncə və hüquqi tənqid qabiliyyətini, eləcə də hüquq mədəniyyətini aşılamaqdır. İldə iki sayı dərc olunan Jurnalda aktual hüquqi problemlər barədə yerli və xarici müəlliflərin məqalələri redaktə və resenziya (peer-review) prosesindən keçərək dərc olunmaqdadır. İşıq üzü görmüş 120-dən çox məqaləsi və 40-a yaxın bloq yazısı ilə illərin təcrübəsini toplamış Jurnal öz fəaliyyətinə elm şövqü, inam və böyük əzm ilə davam etməkdədir.

Hüquqi yazı, xüsusilə də məqalə ərsəyə gətirmək hüquqşünaslar üçün adi bir fəaliyyətdən ibarət deyildir. Bu, dərin hüquqi məsələlərin və mürəkkəb problemlərin doğurduğu, bəzən aydın, bəzənsə qarışıq düşüncələrin yazıya çevrildiyi uzun və ciddi bir prosesdir. Bütün bu prosesin sonunda ərsəyə gəlmiş olan yazı həmin məsələlərin həlli və hüququn inkişafı üçün yol açmaqdadır.

Bununla belə, hüquqi yazı sənəti hüquq təhsili və düzgün yazı yazmaq qabiliyyətindən daha çoxunu tələb edir: lazımi hüquqi biliyə sahib olmaq, məsələlərə tənqidi yanaşa bilmək, yenilikçi olmaq, daim araşdırmaq və bütün bunların fonunda hüquqi ideyaları ifadə edə bilmək üçün yüksək yazı bacarığına malik olmaq.

Təəssüflər olsun ki, Azərbaycan hüquqşünasları bu yolda indiyə qədər kompassız şəkildə irəliləmiş, hüquqi yazı barəsindəki məlumatları çoxsaylı xarici mənbələrdən araşdırmalı olmuşlar. Ona görə ki, yerli ədəbiyyatda akademik hüquqi yazının hansı tələblərə cavab verməli olduğu və yazının

necə ərsəyə gətirilməsi ilə bağlı əhatəli bir bələdçi və ya sistemli bir mənbə mövcud deyildi. Bu boşluq isə hüquqa töhfə vermək istəyən parlaq beyinlərin qarşısında duran səssiz bir maneə idi.

BDU Hüquq fakültəsi Tələbə Hüquq Jurnalının Redaksiya Heyəti olaraq məhz bu boşluğu doldurmaq məramı ilə Jurnalın çoxillik təcrübəsi əsasında Akademik hüquqi yazı kitabçası (bundan sonra – Kitabça) ərsəyə gətirmək qərarına gəldik. Kitabçanın hazırlanmasında əsas məqsəd akademik hüquqi yazı ilə məşğul olmaq istəyən şəxslər üçün bələdçi rolunu oynamaq və bu yolda onlara işıq tutmaqdır. İnanırıq ki, bu Kitabça hüquq elminin inkişafına töhfə vermək istəyən müəlliflərə yol göstərəcəkdir.

# MÜNDƏRİCAT

Giriş ..... 1
I. Yazıya hazırlıq ..... 2
A. Tədqiqat problemi ..... 2
B. Yazı üçün ilkin araşdırmanın aparılması ..... 4
C. Mənbələrin toplanılması ..... 5
D. İddianın formalaşdırılması ..... 7
II. Yazı mərhələsi ..... 11
A. Giriş hissə ..... 11
B. Əsas hissə ..... 15
C. Nəticə hissəsi ..... 17
D. Xülasə (annotasiya) ..... 18
E. Ümumi məsələlər ..... 20
III. Yazıdan sonrakı mərhələ ..... 22
IV. İstinadlar ..... 25
A. İstinadların əhəmiyyəti ..... 26
B. İstinadlardan istifadə ..... 27
V. Plagiatçılıq ..... 29
Nəticə ..... 31

# Giriş

Bu Kitabça akademik hüquqi yazı ərsəyə gətirmək istəyən şəxslər üçün bələdçi olaraq hazırlanmışdır. Kitabça akademik hüquqi yazı barəsində təməl bilik və prinsipləri, eləcə də onun maddi və texniki baxımdan cavab verməli olduğu tələbləri əhatə edir.

Kitabçanın ilk hissəsi "Yazıya hazırlıq" adlanır. Bu hissədə müəllifin yazı prosesinə başlayana qədər görməli olduğu işlərdən bəhs olunur. Burada uğurlu iddia-bəyanat irəli sürmək üçün diqqət yetirilməli olan məqamlara toxunulmuş, eyni zamanda araşdırma prosesi və mənbələrlə işin aparılma qaydası izah olunmuşdur.

Kitabçanın ikinci hissəsi "Yazı mərhələsi"dir. Burada məqalənin struktur vahidləri olan giriş, əsas və nəticə hissələri barədə məlumat verilir və onların necə qurulmalı olduğundan danışılır. Sözügedən hissələrin nələri ehtiva etməli olduğundan və bu hissələrin keyfiyyətli şəkildə necə tərtib edilə biləcəyindən bəhs olunur.

Kitabçanın üçüncü hissəsi isə "Yazıdan sonrakı mərhələ" adlanır. Bu hissə məqalənin ilkin versiyasının təkmilləşdirilməsi barədədir. Burada yazını dərcə hazır hala gətirmək üçün onun üzərində maddi və texniki redaktənin aparılması qaydasından danışılır.

Ardınca akademik hüquqi yazıda istinadların önəmi, onların növləri və istifadə qaydalarından bəhs olunur. Kitabçanın sonuncu hissəsində isə akademik etik pozuntu hesab edilən plagiatçılıq və onun mənfi nəticələri haqqında məlumatlara yer verilmişdir.

Beləliklə, Kitabça akademik hüquqi yazı ərsəyə gətirmək üçün lazım olan bütün prosesləri əhatə etməklə yanaşı, onları ardıcıl və sistemli şəkildə təqdim edir. Bu proseslərin mürəkkəb xarakterinə baxmayaraq, onlar barəsində aydın və əhatəli məlumat verilir.

# I. Yazıya hazırlıq

*"Hazırlaşmamaqla uğursuzluğa hazırlaşırsınız"* – Bencamin Franklinin bu sözü istənilən işə başlamazdan öncəki hazırlıq prosesinin əhəmiyyətini vurğulayır. Akademik hüquqi yazı ərsəyə gətirmək də istisna deyildir. Uğurlu bir yazı ərsəyə gətirmək üçün ardıcıl və sistemli şəkildə bir sıra hazırlıq addımları atmaq lazımdır.[1]

Akademik hüquqi yazıya hazırlığın ilk addımı yazıda hansı hüquqi problemin təhlil ediləcəyini müəyyənləşdiməkdir. Bundan sonra sözügedən problem barədə araşdırma aparılır və mənbələr toplanılaraq təhlil edilir. Son olaraq, müəllif bu araşdırma nəticəsində formalaşdırdığı hüquqi mövqeni oxuculara çatdırır.[2]

Qısaca, bu addımlar *birinci*, tədqiqat probleminin seçilməsi; *ikinci*, onunla bağlı araşdırma aparılması; *üçüncü*, araşdırma nəticəsində iddia-bəyanatın (müəllifin mövqeyi) formalaşdırılmasından ibarətdir.

## A. Tədqiqat problemi

Tədqiqat problemi dedikdə müəllifin haqqında araşdırma apardığı hüquqi problem və ya sual nəzərdə tutulur.[3] Nümunə olaraq, Jurnalın 9-cu Buraxılışının 1-ci Sayında dərc olunmuş *"Beynəlxalq təşkilatlar və insan hüquqları pozuntularına görə məsuliyyət: Yurisdiksiya immunitetinin səbəb olduğu maneələr"* adlı məqalədə tədqiqat problemi qismində beynəlxalq investisiya arbitrajı qərarlarının tətbiqi zamanı yaranan maneələr çıxış edir.[4] Müəllif məqaləsini bu problem ətrafında qurur və onun həlli ilə bağlı təkliflər verir.

---

[1] William H. Putman, Legal Analysis and Writing, 229 (3rd ed. 2008).
[2] Suzanne E. Rowe, Legal Research, Legal Writing, and Legal Analysis: Putting Law School Into Practice, 2-4 (2015).
[3] Wayne C. Booth, Gregory G. Colomb & Joseph M. Williams, The Craft of Research, 35 (2nd ed. 2003).
[4] *Daha ətraflı bax*: Inji Mammadli, *International Organisations and Accountability for Human Rights Abuses: Obstacles Caused by Jurisdictional Immunity*, 9 Baku State University Law Review 66 (2023).

Tədqiqat problemini seçərkən nəzərə almaq lazımdır ki, hər hüquqi problem məqalə yazmaq üçün yararlı deyildir. İlk növbədə, artıq öz həllini tapmış problemlər barədə məqalə yazılması akademik yazının məqsədlərinə xidmət etmir. Məsələn, ABŞ təhsil müəssisələrində irqi ayrı-seçkilik problemini ümumi şəkildə tədqiq edən bir yazının akademik hüquqi sferaya heç bir faydası olmayacaqdır. Belə ki, sözügedən problem daha əvvəl kifayət qədər tədqiq olunmuş və artıq hüquqi cəhətdən öz həllini tapmışdır. Beləliklə, o artıq akademik diskursun bir parçası deyildir.[5]

Əlavə olaraq, ümumiyyətlə əhəmiyyət kəsb etməyən hüquqi problemlər barədə məqalənin yazılması da məsləhət görülmür. Məsələn, Böyük Britaniyanın 1986-cı il tarixli "Salmon Qanunu"nun 32-ci maddəsinə əsasən, salmon balığı ilə şübhəli rəftar etmək hüquqi məsuliyyətə səbəb olur. Bu hüquqi məsələnin problem kimi tədqiq olunmasının ciddi praktiki əhəmiyyəti və faydası olmadığından onun barəsində məqalə yazılması da akademik sferaya töhfə verməyəcəkdir.

Bu nümunələrin əksinə, uğurlu tədqiqat problemi hüquqdakı boşluqlar və ya az tədqiq olunmuş praktiki əhəmiyyətli məsələlər hesab olunur. Bununla yanaşı, əvvəllər araşdırılmış tədqiqat problemləri ilə bağlı mövcud diskursdan fərqlənən yeni yanaşmalar və həll yolları irəli sürmək də əlverişli üsuldur.[6]

Mahiyyət etibarilə, uğurlu, yəni akademik sferaya fayda verə biləcək tədqiqat probleminin 2 növü var. Birincisi, mövcud hüququn praktikada tətbiqindən irəli gələn problemlərdir.[7] Məsələn, xalqların öz müqəddəratını təyin etmə hüququ və dövlətlərin ərazi bütövlüyü hüququ arasındakı

---

[5] School Segregation and Integration, https://www.loc.gov/collections/civil-rights-history-project/articles-and-essays/school-segregation-and-integration/ (son baxış 20 iyul 2024).

[6] John W. Creswell, Educational Research: Planning, Conducting, and Evaluating Quantitative and Qualitative Research, 62-63 (4th ed. 2005).

[7] Heather Meeker, *Stalking the Golden Topic: A Guide to Locating and Selecting Topics for Legal Research Papers*, 1996 Utah Law Review 1, 2-3 (1996).

konfliktə əsaslanan məqalənin tədqiqat problemi bu kateqoriyadan olacaqdır. Belə ki, sözügedən konfliktdə hər iki hüquqi mövqenin əsaslandığı kifayət qədər mənbələr vardır. Eyni zamanda bu iki hüquq arasındakı ziddiyyətə əsaslanan faktiki vəziyyət də uzun illərdir ki, beynəlxalq səviyyədə mövcuddur.[8]

İkinci növ tədqiqat problemi isə mövcud qanunların yeni vəziyyətə və ya yeni qanunların mövcud vəziyyətə tətbiqindən yaranan problemlərdir.[9] Məsələn, yeni yaranan "ChatGPT" kimi süni intellekt alətlərindən istifadə edilməsinin 2010-cu ildə qəbul edilmiş "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunluğu bu növ tədqiqat problemidir. Alternativ olaraq, 2023-cü ilin sonunda qəbul edilmiş "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun ölkədə mövcud arbitraj mühitinə təsiri də eyni qəbildən tədqiqat problemi hesab olunur.

Müəllif tədqiqat problemini müəyyənləşdirdikdən sonra artıq müəyyən bir araşdırma fokusu olacaqdır. Mövzu ilə bağlı ilkin araşdırma da məhz bu fokus üzrə aparılır.

## B. Yazı üçün ilkin araşdırmanın aparılması

Hüquqi problem müəyyən edildikdən sonrakı mərhələ seçilmiş problemə uyğun araşdırmanın aparılmasıdır. Bu mərhələdə əsas məsələ müvafiq mənbələrin toplanılıb təhlil edilməsidir.[10] Bununla belə, mövcud ədəbiyyatdakı mənbələrin sayı və əhatəsi olduqca genişdir. Bu vəziyyət bir nəfərin çox böyük bir kitabxanada sadəcə mövzusunu bildiyi kitabı axtarmasına bənzəyir. Təbii ki, həmin kitab barədə əlavə məlumatlar toplamadan onu axtarmaq əlverişli olmayacaq. Axtarış dairəsini məhdudlaşdırmaq üçün kitabın adı, janrı, müəllifi, həcmi kimi məlumatları

[8] Daha ətraflı bax: Joshua Castellino, *Territorial Integrity and the "Right" to Self Determination: An Examination of the Conceptual Tools*, 33 Brooklyn Journal of International Law 503 (2008).
[9] Meeker, yuxarıda istinad 7.
[10] C. R. Kothari, Research Methodology: Methods and Techniques, 13 (2nd ed. 2004).

öyrənmək lazımdır.[11]

Tədqiqat problemi ətrafında aparılan hüquqi araşdırma üçün də bu prinsip keçərlidir. Bu səbəbdən əsas araşdırmaya başlamazdan əvvəl ortaya qoyulmuş problem barədə potensial mənbələrin əhatə dairəsi təqribi müəyyən edilir. Bu məqsədlə, müəllif tədqiqat problemi daxilində hansı suallara cavab tapmaq istədiyini müəyyən etməli və hansı növ mənbələrə (məsələn, qanunvericilik aktları, məhkəmə işləri və ya məqalələr) ehtiyac duyduğunu aydınlaşdırmalıdır.[12]

Əlavə olaraq, cavabı tapılmalı olan suallar müəyyən edildikdən sonra səthi araşdırma aparıla və beləliklə, mənbələrin axtarışına kömək edəcək açar sözlər və terminologiya müəyyənləşdirilə bilər. Nəticədə, həmin açar sözlərə uyğun axtarış müvafiq mənbələrin tapılmasını asanlaşdıracaqdır.[13]

Beləliklə, tədqiqat problemi müəyyən olunduqdan sonra problemə uyğun ilkin araşdırma aparmaq lazımdır. Yuxarıda göstərilən üsullarla araşdırma aparıldıqdan sonra isə mənbələrin toplanılmasına keçmək olar.

## C. Mənbələrin toplanılması

Araşdırma adətən bütün yazı boyunca baş tutan prosesdir. İlkin mənbələrdən qeydlər alındıqca və yazı formalaşdıqca yeni suallar yaranmağa davam edir. Bu da öz növbəsində müntəzəm mənbə axtarışını zəruri edir. Müəlliflər bu axtarış zamanı həm çap olunmuş, həm də onlayn mənbələrə müraciət edirlər.

Əvvəllər mənbələri toplamaq üçün əsas araşdırma yeri fiziki kitabxanalar olsa da, hazırda onlayn məlumat bazalarında axtarışa üstünlük verilir. Akademik hüquqi mənbələrin indeksləndiyi ən çox istifadə edilən bazalar bunlardır: “HeinOnline”, "JSTOR”, “Scopus”, “Web of Science”, “Westlaw”,

---

[11] Amy E. Sloan, Basic Legal Research: Tools and Strategies, 30 (7th ed. 2018).

[12] Yenə orada, 32.

[13] Yenə orada, 45.

"LexisNexis" və s.[14] Bu məlumat bazalarına çıxış ödənişlidir, bununla belə, bəzi universitet və ya qurumlar tərəfindən ödənişsiz çıxış imkanı da verilə bilər.

Ödənişli databazalara çıxış imkanı olmadıqda isə açıq kataloqlara müraciət etmək olar. Əlçatanlıq baxımından bunlardan ən çox istifadə olunanı "Google Scholar"-dır.[15] Əlavə olaraq, "SSRN (Social Science Research Network)" databazasında da hüquq sahəsi ilə bağlı araşdırma aparmaq mümkündür.

Bununla belə, tapılan hər mənbəni yararlı hesab etmək olmaz. Bu səbəbdən mənbələr ilə işləməzdən öncə onların yararlılığını yoxlamaq lazım gəlir. Bu məqsədlə, xüsusən onlayn axtarış zamanı tapılan mənbələri aşağıdakı meyarlarla yoxlamaq mümkündür:[16]

**1. Aktuallıq.** Məlumatların aktuallığını aydınlaşdırmaq üçün onların yayımlandığı tarixi müəyyən etmək lazımdır. Əlavə olaraq, onlayn mənbələrdə müvafiq səhifələrə keçid linkinin işlək olub-olmadığını yoxlamaq da faydalıdır.

**2. Uyğunluq.** Həmçinin toplanılan məlumatların məqalənin məqsədlərinə uyğunluğu yoxlanılmalıdır. Bu meyara əsasən, toplanmış mənbə tədqiqat probleminin araşdırılmasına və ya həllinə fayda verməlidir. Eyni zamanda mənbənin həddindən artıq sadə və ya mürəkkəb dildə olmamasına da diqqət yetirmək məqsədəuyğundur.

**3. Etibarlılıq.** Mənbənin ixtisaslı, peşəkar və mötəbər bir müəllif və ya təşkilat tərəfindən yazıldığından əmin olmaq lazımdır. Bu məqsədlə mənbənin müəllifi araşdırılmalı, həmçinin onun qərəzli olmadığı və məsələyə obyektiv yanaşdığı dəqiqləşdirilməlidir. Bundan əlavə, mənbənin indeksləndiyi məlumat bazasının da mötəbər olub-olmamasına nəzər

[14] Yenə orada, 252.
[15] Yenə orada, 253.
[16] California State University, Evaluating Information – Applying the CRAAP Test, https://library.csuchico.edu/sites/default/files/craap-test.pdf (2010).

yetirilməlidir.

**4. Doğruluq/dəqiqlik.** Mənbədə qeyd edilmiş məlumatların sübutlarla dəstəklənmiş olmasına diqqət etmək lazımdır. Məlumatların doğruluğunu yoxlamaq üçün etibarlı hesab edilən digər mənbələrlə müqayisə aparıla bilər.

Ümumilikdə, etibarlı mənbələrə qanunvericilik aktlarını, məhkəmə işlərini, rəsmi nəşrləri, mötəbər müəlliflər tərəfindən yazılmış elmi kitablar və məqalələri, nüfuzlu məlumat bazalarına yerləşdirilmiş dərcləri və digərlərini aid etmək olar. Etibarsız mənbələrə isə bloqlar, tanınmayan xəbər saytları, sosial şəbəkə postları, istinadsız məqalələr, habelə Wikipedia kimi istənilən vaxt hər kəs tərəfindən redaktə edilə bilən onlayn ensiklopediyaları nümunə göstərmək mümkündür.

## D. İddianın formalaşdırılması

Akademik yazıda iddia-bəyanat (tezis) müəllifin araşdırdığı problemin həllinə töhfə verən, onun mövqe və ya təkliflərini ifadə edən əsas arqumentdir.[17] Digər sözlə, iddia-bəyanat müəllifin hər hansı hüquqi problemlə bağlı ortaya qoyduğu mövqedir.[18] Bu baxımdan iddia-bəyanatı akademik hüquqi yazının "özəyi" hesab etmək olar.

Bu məqamda iddia-bəyanatın nə olduğunu daha yaxşı anlamaq üçün onu tədqiqat problemindən fərqləndirmək faydalı olar. Tədqiqat problemi məqalənin təhlil etdiyi hüquqi problem, sual və bənzər məsələlərdir. Məsələn, Jurnalın 8-ci Buraxılışının, 2-ci Sayında dərc olunmuş *"100 illik mübahisə: Egey dənizində ərazi sularının sərhədlərinin müəyyən edilməsi"* məqaləsinin tədqiqat problemini Türkiyə ilə Yunanıstan arasındakı delimitasiya mübahisəsi təşkil edir.[19] Deməli, tədqiqat problemi özlüyündə konkret bir arqument ehtiva

[17] Odegaard Writing & Research Center, Claims, Claims, Claims, 1 (2023).
[18] Anne Enquist, *Substantive Editing versus Technical Editing: How Law Review Editors Do Their Job*, 30 Stetson Law Review 451, 454 (2000).
[19] *Daha ətraflı bax:* Ceyhun Xəlilov, *100 illik mübahisə: Egey dənizində ərazi sularının sərhədlərinin müəyyən edilməsi*, 8 Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı 178 (2022).

etmir və statik xarakter daşıyır. Məqalənin iddia-bəyanatı isə sözügedən problemin həlli üçün verilən təklifi və ya ona baxış bucağını ifadə etməlidir.[20] Nümunə olaraq, sözügedən məqalədə həll yolu "*Egey dənizi Türkiyə və Yunanıstan arasında Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən tətbiq edilən orta xətt prinsipi əsasında bölünməlidir*" cümləsində öz əksini tapmışdır. Beləliklə, iddia-bəyanat dinamik xarakter daşıyır və mövzu ilə bağlı konkret bir mövqe əks etdirir.

İddia-bəyanat təbiətinə görə iki yerə bölünür: təsviredici və tövsiyəedici.[21] Təsviredici iddia-bəyanat mövcud hüquqi problemi şərh edərək yeni bir baxış bucağı təqdim edir. Məsələn, müəllif hər hansı bir qanunun hüquq sisteminə və ictimai münasibətlərə necə təsir etdiyi barədə mövqe ortaya qoyursa, bu, təsviri iddia-bəyanatdır. Tövsiyəedici iddia-bəyanat isə hüquqi problemə həll yolları təklif edir. Məsələn, müəllif hər hansı qanunun necə təfsir edilməli olduğu barədə təklif irəli sürürsə, bu, tövsiyəedici iddia-bəyanat hesab olunur.[22]

Eyni zamanda həm təsviredici, həm də tövsiyəedici xarakter daşıyan iddia-bəyanatlar daha maraqlı və təsirli hesab edilir.[23] Belə ki, bu cür iddia-bəyanatı olan məqalələr əvvəlcə oxucuları hüquqi problemə münasibətdə yeni yanaşma ilə tanış edir, sonra isə bu yanaşma əsasında həmin problemin həlli üçün təkliflər verir.

Məqalənin dərcə yararlı olması üçün iddia-bəyanat bir sıra xüsusiyyətləri özündə əks etdirməlidir. İddia-bəyanat qarşısında duran tələbləri aşağıdakı kimi sıralamaq olar:[24]

---

[20] Enquist, yuxarıda istinad 18.
[21] Eugene Volokh, Academic Legal Writing: Law Review Articles, Student Notes, Seminar Papers, and Getting on Law Review, 33 (4th ed. 2010).
[22] Yenə orada.
[23] Yenə orada.
[24] Yuxarıda istinad 21, 43-53.

**1. Yenilik.** Bu xüsusiyyət məqalədə daha əvvəl irəli sürülməmiş fikir səsləndirilməsini, yeni bir mövqe ortaya qoyulmasını tələb edir. Yeniliyə nail olmağın ən asan yolu ədəbiyyatda kifayət qədər tədqiq edilməmiş problemləri araşdırmaqdır. Bununla belə, tez-tez toxunulan mövzulara müraciət edərək mövcud diskursdan fərqli iddia və əsaslandırmalar da irəli sürmək olar.

**2. Qeyri-aşkarlıq.** İddianın qeyri-aşkarlığı üçün irəli sürülən fikir sadə məntiqi mühakiməyə əsaslanan bəsit fikir olmamalı, hüquqi məsələlər daha dərindən təhlil edilməlidir. Bu prinsipə əsasən, məqalədə asanlıqla ağıla gələ bilən baxış bucağı əvəzinə detallı və məzmun cəhətdən zəngin arqumentlər irəli sürülməlidir.[25] Məsələn, Jurnalın 5-ci Buraxılış, 2-ci Sayında dərc edilmiş "*Amerikada ruhanilərin cinsi istismarından sonra həqiqət, ədalət və barışıq*" məqaləsində müəllif ruhanilərin uşaqlara qarşı cinsi istismarı problemini araşdırır.[26] Burada müəllif sadəcə olaraq *sözügedən cinayəti törədən ruhanilərə qarşı sanksiyaların ağırlaşdırılması* təklifini irəli sürsə idi, bu, asanlıqla ağla gələn aşkar bir təklif olacaqdı. Məqalədə isə cinayət qurbanlarının vəziyyətini yaxşılaşdırmaq və gələcək cinayətlərin qarşısını almaq üçün "bərpaedici ədalət konsepsiyası" fikri irəli sürülür. Beləliklə, qeyri-aşkarlıq tələbi qarşılanır.

**3. Faydalılıq.** Məqalənin dəyərinin əsas ölçüsü onun faydalı olmasıdır. Faydalılıq dedikdə auditoriyanın məqalədən nə dərəcədə yararlandığı nəzərdə tutulur. Digər sözlə, irəli sürülmüş iddia-bəyanat hüquq sahəsinə nəzəri və ya praktiki töhfə verə bilməlidir. Bu baxımdan iddia-bəyanatın çoxyönlü tətbiq oluna bilməsi vacib məsələlərdəndir. Məsələn, müəllifin arqumentləri müxtəlif hüquqi yurisdiksiyalarda və ya kontekstlərdə tətbiq

[25] Yenə orada.

[26] Daha ətraflı bax: Kevin H. Govern, *Truth, Justice, and Reconciliation in the Wake of Cleric Sexual Abuse in America*, 5 Baku State University Law Review 216 (2019).

edilə bildikdə məqalə daha geniş auditoriyaya müraciət etdiyi üçün faydalılığı artır. Bundan əlavə, təsvirdən çox praktiki məzmunlu fikirlərin və həll yollarının iddia-bəyanatda əks olunması məqalənin daha faydalı olmasına kömək edir.

**4. Məntiqilik.** İddianın məntiqli olması dedikdə onun əsaslı dəlillərə və məntiqi arqumentasiyaya əsaslanması nəzərdə tutulur. Məsələn, Jurnalın 9-cu Buraxılış, 1-ci Sayında dərc edilmiş *"Rəsmi sənədlərin qlobal dövriyyəsində elektron apostil"* məqaləsinin iddiasına əsasən elektron apostilin istifadəsi genişləndirilməli və buna müvafiq olaraq xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiyaya (Apostil Konvensiyası) dəyişikliklər edilməlidir.[27] Müəllif bu iddianı dəstəkləmək üçün apostil sahəsinin də rəqəmsallaşma dövrünə uyğunlaşmalı olduğunu vurğulayır. Xüsusilə, elektron apostil sisteminə keçidlə bürokratik əngəllərin azalacağı və apostilə əlçatanlığın artacağı əsaslandırılır. Bunun isə Apostil Konvensiyasının məqsədlərinə uyğun olduğu qeyd edilir. Göründüyü kimi, müəllif öz iddiasını dəstəkləmək üçün əsaslandırılmış arqumentlərdən sistemli şəkildə istifadə etmişdir.

Ümumiyyətlə, iddianın məntiqiliyini təmin etmək və məqalənin əhatəliliyini artırmaq üçün kodlaşdırma sahəsində "*test suite*" kimi tanınan metoddan istifadə etmək mümkündür. Belə ki, proqramçılar öz yazdıqları kodun funksionallığından əmin olmaq üçün onu müxtəlif situasiyalarda sınaqlardan keçirirlər. Müəllif də məqalədəki təklifin yararlılığını ölçmək üçün onun nəzəri olaraq fərqli situasiyalara necə tətbiq oluna biləcəyini öz beynində təhlil etməlidir. Bu proses ilkin olaraq nəzərdən qaçırılan nöqsan və çatışmazlıqları da işıqlandıraraq təklifi təkmilləşdirməyə imkan verir.[28]

[27] *Daha ətraflı bax:* Nazrin Hasanova, *The Electronic Apostille in Worldwide Circulation of Public Documents*, 9 Baku State University Law Review 23 (2023).
[28] Yuxarıda istinad 21, 64-66.

Beləliklə, məqalənin əsasını təşkil edən onun iddia-bəyanatıdır. İddianın yararlı olması üçün isə yenilik, qeyri-aşkarlıq, faydalılıq və məntiqilik tələbləri qarşılanmalıdır. Bu hissəyə qədər bütün məsələlər həll olunduqdan sonra artıq müəllifin ağlında yazı ilə bağlı müəyyən bir yol xəritəsi formalaşmış olur. Bu isə o deməkdir ki, artıq fikirlərin sistemli şəkildə yazıya köçürüldüyü mərhələyə keçmək olar.

## II. Yazı mərhələsi

Yazıya hazırlıq mərhələsinin mahiyyəti tədqiqat probleminin seçilməsi, müvafiq araşdırmanın aparılması və hüquqi mövqenin formalaşdırılması idi. Yazı mərhələsinin əsasını isə sözügedən araşdırma və onun əsasında formalaşdırılmış hüquqi mövqenin oxuculara təqdim edilməsi təşkil edir. Beləliklə, bu başlıq altında akademik hüquqi yazının əsasını təşkil edən giriş, əsas və nəticə hissələri, həmçinin xülasə və bəzi ümumi məsələlərdən bəhs olunacaqdır.

### A. Giriş hissə

*"İlk təəssüratı yaratmaq üçün ikinci bir şansınız yoxdur".* – Endryu Qrant

Bir çox məsələlərə münasibətdə istifadə olunan bu ifadəni akademik yazılara da aid etmək olar. Belə ki, artıq ilk cümlələri oxumağa başladıqları andan etibarən oxucularda məqalə barəsində ümumi bir fikir yaranmış olur. Bu səbəbdən giriş hissə məqalənin oxunması üçün həlledici rol oynayır.

Ümumiyyətlə, giriş hissə məqalənin mövzusunu oxuculara təqdim edərək onları yazının davamına hazırlayan hissədir.[29] Bu baxımdan giriş hissənin əsas funksiyası oxucuları məqalənin tədqiq etdiyi hüquqi problemlə tanış edərək müəllifin bununla bağlı mövqeyini çatdırmaqdır.[30] O nə qədər güclü

[29] How to Write a Research Paper Introduction (2023), https://www.grammarly.com/blog/research-paper-introduction/ (son baxış 20 iyul 2024).
[30] Georgetown University, Introductions and Conclusions for Scholarly Papers, 1. Burada bax: https://www.law.georgetown.edu/wp-content/uploads/2018/07/Bolles-Introductions-and-Conclusions-for-Scholarly-Papers.pdf (son baxış 20 iyul 2024).

mövqe ortaya qoymağı bacarsa, oxucunu yazıya cəlb etmə ehtimalı o qədər çox olacaq.

Giriş hissə ilə bağlı ən vacib məsələ məqalənin tədqiq etdiyi hüquqi problemin burada necə təqdim edilməsidir. Belə ki, əgər müəllif oxucuları məqaləsinin faydalı və maraqlı olacağına inandırarsa, onlar məqaləni oxumağa davam edəcəklər.[31] Buna nail olmaq üçün giriş hissədə sual vermək, problemin ciddiliyini vurğulamaq, mübahisə predmetini və ya təkzib ediləcək arqumenti təqdim etmək kimi bir sıra üsullardan istifadə edilə bilər:[32]

**1. Sual vermək.** Giriş hissədə müəllif məqaləsində müzakirə edəcəyi hüquqi problemi oxuculara sual şəklində çatdıra bilər. Belə ki, mövzu ilə bağlı sual vermək oxucularda maraq oyada və yazının davamını oxumağa təşviq edə bilər. Məsələn, Jurnalda "Qanunazidd yerləşdirilmiş küçə sənətinin müəlliflik hüquqları ilə bağlı "medalyonun" tərs üzü" məqaləsinin giriş hissəsində belə bir sual ortaya qoyulur: "*Küçə sənəti olan və qanunazidd şəkildə yerləşdirilmiş qraffitilər müəlliflik hüquqları çərçivəsində qoruna bilərmi?*"[33] Bu sualı verməklə müəllif diqqəti məqalənin iddia-bəyanatına cəmləşdirir.

**2. Problemin ciddiliyini vurğulamaq.** Müəllif oxucuları məqalədəki problemin ciddi olduğuna inandıra bilərsə, onlar həll yolunu öyrənmək üçün yazını oxumağa davam edə bilərlər. Məsələn, Jurnaldakı "Yeraltı sular hüququn obyekti kimi: Azərbaycan Respublikası və beynəlxalq qanunvericilikdə yeraltı suların tənzimlənməsi, istifadəsi və mühafizəsi məsələləri" məqaləsində qeyd edilir: "*Cənubi Qafqazdakı su ehtiyatlarının cəmi 10 faizi Azərbaycan ərazisindədir və ümumiyyətlə, Azərbaycan dünyada sudan asılı ölkələr arasında 16-cı yerdədir. Məhz bu səbəbdən ölkə ərazisindəki yeraltı suların*

[31] Yenə orada.
[32] Volokh, yuxarıda istinad 21, 76 (4th ed. 2010).
[33] Daha ətraflı bax: Amil Cəfərquliyev, *Flipping a Coin for Copyrightability of Illegally Placed Street Art*, 9 Baku State University Law Review 1, 2 (2023).

*səmərəli istismar olunması üçün tənzimləməyə ehtiyac vardır"*.[34] Problemin ciddiliyi müvafiq məlumatlarla əsaslandırıldıqdan sonra isə onun həlli üçün bir sıra təkliflərin irəli sürüləcəyi qeyd edilir. Beləliklə, müəllif giriş hissəsində oxucuları məqaləsinin faydalı olacağına da inandırır və onları problemin həllini öyrənməyə sövq edir.

**3. Mübahisə predmetini təqdim etmək.** Müəllif öz məqaləsinə hüquq sferasında mövcud olan və barəsində danışacağı hüquqi mübahisəni oxuculara izah etməklə başlaya bilər. Məsələn, Jurnaldakı "Kimsəsiz uşaq": Xarici terrorist döyüşçülərin geri qaytarılması üzrə mümkün dörd yanaşma barədə düşüncələr" məqaləsinin giriş hissəsində iki fərqli mövqe oxuculara çatdırılır: 1) xarici ölkələrdə terror qruplaşmalarına qoşulan vətəndaşların öz ölkələrinə qayıtmaq hüququ vardır; 2) xarici terror qruplaşmalarına qoşulmuş şəxslərin vətəndaşı olduqları ölkəyə qayıtmalarına imkan verilməməlidir.[35] Müəllif hüquq ədəbiyyatında mövcud olan iki zidd fikri təqdim edərək oxucuları bu fikirlərdən hansının daha "düzgün" olması barədə düşünməyə sövq edir və bundan sonra öz mövqeyini bildirir.

**4. Təkzib ediləcək arqumenti təqdim etmək.** Müəllif giriş hissədə təkzib edəcəyi mövqeyi oxuculara çatdırmaqla fikirlər arasındakı ziddiyyəti üzə çıxara və oxucuların marağını cəlb edə bilər. Məsələn, "Hindistanda ailə təcavüzü: məhkəmə yolu ilə məhdudlaşdırılmış insan hüquqları pozuntuları və dünyanın ən böyük demokratiyasında qadınların qeyri-insaniləşdirilməsi" məqaləsində giriş hissə bu şəkildə başlayır: *"Dipak Misra deyir ki, ailədaxili təcavüz Hindistanda cinayət hesab edilməməlidir. Belə ki, bunun baş verməsi bizim*

[34] Daha ətraflı bax: Sevil Həziyeva, *Yeraltı sular hüququn obyekti kimi: Azərbaycan Respublikası və beynəlxalq qanunvericilikdə yeraltı suların tənzimlənməsi, istifadəsi və mühafizəsi məsələləri*, 8 Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı 44, 46 (2022).
[35] Daha ətraflı bax: Naman Anand, *"Nobody's Child": Reflections on Four Possible Approaches for the Repatriation of FTFs*, 8 Baku State University Law Review 76, 77 (2022).

*ölkəmizi ayaq üstə saxlayan ailə dəyərlərimizi alt-üst edəcəkdir."*[36] Ardınca müəllif bu arqument əleyhinə öz fikirlərini səsləndirməyə başlayır. Beləliklə, bu üsullarla məqalənin giriş hissəsini daha effektiv şəkildə yazmaq mümkündür.

Məqalədə tədqiq edilən problem və onunla bağlı mövqe oxuculara çatdırıldıqdan sonra isə giriş hissəsinin sonunda yol xəritəsinin olması arzuediləndir. Belə ki, bir çox hüquq jurnalları da giriş hissədə yol xəritəsinin olmasını tələb edirlər.[37]

Əsasən giriş hissənin sonunda verilən yol xəritəsi məqalənin strukturunu, eləcə də hər başlıq altında müzakirə edilən məsələləri əks etdirir. Bu sayədə artıq oxucular giriş hissəni bitirdikdə yazının davamında nələrdən bəhs olunacağını dəqiq bilirlər və yazının ümumi strukturu beyinlərində canlanır.[38] Məsələn, Jurnaldakı "Patent və sui generis sistemləri çərçivəsində bitki müxtəlifliliyinin hüquqi mühafizəsi" məqaləsinin giriş hissəsində aydın bir yol xəritəsi verilmişdir:

*"Məqalənin birinci bölməsində bitki müxtəlifliyinin əqli mülkiyyət hüquqları ilə mühafizəsinin ümumi məsələləri, ikinci bölməsində isə bitki müxtəlifliyinin sui generis modeli və effektiv sui generis sistemin xüsusiyyətləri, habelə onların AR qanunvericiliyindəki təzahürünə nəzər salınmışdır. Növbəti bölmədə patentin keyfiyyəti konsepsiyası araşdırılmış və sonuncu bölmədə isə Qanunda Konvensiyadan fərqli qaydaların nəzərdə tutulduğu hallarda tətbiq edilməli hüquq müzakirə edilmişdir".*

Nümunədən göründüyü kimi, müəllif yol xəritəsində məqalə boyunca müzakirə edilən məsələləri ardıcıl və sistemli şəkildə əks etdirmişdir. Bu yolla da oxucuların məqalə barədə təsəvvürlərini artırmağa nail olmuşdur.

---

[36] Daha ətraflı bax: Rajesh Mathew, *Marital Rape in India: Judicially Sanctioned Human Rights Violations and the Dehumanization of Women in the Biggest Democracy of the World*, 7 Baku State University Law Review 48, 49 (2021).
[37] Yuxarıda istinad 21, 62.
[38] Yenə orada.

Beləliklə, məqalə barəsində ilkin təəssüratı yaradan giriş hissə üçün tələblər yazının məzmununu düzgün əks etdirməsi ilə yanaşı, effektiv şəkildə təqdim olunmasıdır. Bu məqsədlə yuxarıdakı üsullardan istifadə etmək mümkündür. Giriş hissəsi hazır olduqdan sonra isə artıq məqalənin ən önəmli parçası olan əsas hissəyə keçmək olar.

## B. Əsas hissə

Məqalənin əsas hissəsində müəllif hüquqi problemi təhlil edir və bununla bağlı öz iddia-bəyanatını əsaslandırır.[39] Burada hüquqi problem və müvafiq iddia-bəyanatın tədqiq edilən hər bir aspekti strukturlu şəkildə yazıya daxil edilməlidir. Bu baxımdan sistemliliyi və əhatəliliyi təmin etmək üçün əsas hissəni şərti olaraq iki yerə bölmək mümkündür: *arxa plan* və *müzakirə*.[40]

Girişdən sonra gələn *arxa plan* yarımhissəsində tədqiqat probleminin başa düşülməsi üçün zəruri olan məlumatlar oxuculara çatdırılır.[41] Beləliklə, müəllif hüquqi problemlə bağlı iddia-bəyanatını əsaslandırmadan öncə həmin problemin mahiyyətini oxucular üçün aydınlaşdırır.[42]

*Arxa planı* daha yaxşı anlamaq üçün, Jurnaldakı "Vəfat etmiş şəxsin fərdi məlumatları qorunurmu?" məqaləsinə baxmaq mümkündür. Burada şəxsin vəfatından sonra onun rəqəmsal aləmdə toplanmış fərdi məlumatlarının qorunması yolları barədə təklif irəli sürülmüşdür.[43] Bununla belə, ilk öncə problemin başa düşülməsi üçün zəruri olan arxa plan məlumatlarına yer verilmişdir. Bu məqsədlə məqalədə həm Azərbaycan, həm də Avropa qanunvericiliyində fərdi məlumatların qorunması sahəsindəki tənzimləmələr

[39] Jessica L. Clark & Kristen E. Murray, Scholarly Writing: Ideas, Examples, and Execution, 76-79 (2010).
[40] Yuxarıda istinad 21, 91-96.
[41] What is the Background of a Study and How Should it be Written?, https://scientific-publishing.webshop.elsevier.com/manuscript-preparation/what-background-study-and-how-should-it-be-written/#:~:text= (son baxış 20 iyul 2024).
[42] Clark & Murray, yuxarıda istinad 39, 78.
[43] Daha ətraflı bax: Çinarə Qasımova, *Vəfat etmiş şəxsin fərdi məlumatları qorunurmu?*, 7 Baku State University Law Review 31, 32-33 (2019).

əks etdirilmiş, müvafiq sahədəki mövcud beynəlxalq praktikaya nəzər salınmışdır. Yalnız mövcud hüquqi və faktiki vəziyyət nümayiş etdirildikdən sonra müəllif öz təkliflərini irəli sürmüşdür.

*Arxa planda* müvafiq hüquqi problemin mahiyyəti oxuculara çatdırıldıqdan sonra artıq problemin təhlilinin aparıldığı və həll yollarının verildiyi *müzakirə hissəsinə* keçid edilir.[44] İddia-bəyanat da *məhz müzakirə hissəsində* əsaslandırılır. Bu səbəbdən, həmin hissənin uğurlu olması üçün iddia-bəyanatla bağlı yuxarıda qeyd edilən 4 əsas tələbə[45] riayət etmək lazımdır.

Sözügedən tələblərə riayət etməklə güclü iddia-bəyanat formalaşdırmaq mümkün olsa da, onu yazıda təsirli şəkildə təqdim etmək də əhəmiyyətlidir. Buna nail olmağın bir sıra yolları vardır.

İlk olaraq, irəli sürülən təklifin nəzəri cəhətdən əsaslandırılmış olmaqla yanaşı, həm də praktiki əhəmiyyət kəsb etməsi oxuculara çatdırıla bilər. Məsələn, müəyyən bir qanunun necə təfsir edilməli olduğuna dair hüquqi doktrina və məhkəmə presedentlərinə əsaslanaraq məntiqi arqument irəli sürmək olar. Bu isə özlüyündə həmin arqumentin inandırıcı olması üçün kifayət deyil. Alternativ olaraq, müəllif qanunun öz təklifinə uyğun təfsir edilməsinin praktiki cəhətdən necə faydalı olacağını əsaslandırarsa, öz arqumentini gücləndirəcəkdir. Arqumentin praktiki faydalılığını göstərmək üçün həmçinin real və ya xəyali nümunələr də verilə bilər.[46]

Əlavə olaraq, müəllif arqumentinin zəif aspektləri ilə məşğul olmaqdan qaçmamalıdır. Belə ki, hər bir hüquqi yanaşmanın əsaslandırılması çətin olan hissələri vardır. Bunları "xalça altına süpürüb" oxuculardan gizlətmək yazının natamam və zəif olmasına səbəb olacaqdır. Bunun əvəzinə həmin aspektləri yazıda etiraf edərək onları izah etmək məqsədəuyğundur. Belə ki, akademik hüquqi yazının keyfiyyətini şərtləndirən amillərdən biri də

[44] Yuxarıda istinad 39, 96-99.
[45] Yenilik, məntiqilik, qeyri-aşkarlıq, faydalılıq.
[46] Yuxarıda istinad 39, 97-98.

müəllifin öz hüquqi mövqeyi ilə bağlı çətinlikləri necə həll etməsi ilə bağlıdır.[47]

Nəticədə, arxa plan hissəsində müəllif məqalədə tədqiq edəcəyi hüquqi problemi oxucular üçün aydınlaşdıraraq onları öz iddia-bəyanatına hazırlayır. Müzakirə hissəsində isə müəllifin iddia-bəyanatı əsaslandırılmış arqumentlər şəklində oxucuya təqdim edilir. Əsas hissə bitdikdən sonra artıq məqalənin ən son hissəsi olan nəticəyə keçid edilir.

## C. Nəticə hissəsi

Nəticə hissəsi müəllifin oxucularda müsbət təəssürat yaratması üçün son fürsətdir.[48] Həmçinin nəzərə almaq lazımdır ki, bəzi hallarda oxucu ilk növbədə nəticəni nəzərdən keçirməklə məqaləni oxuyub-oxumayacağına qərar verir.[49] Bu səbəbdən, bu hissənin düzgün istiqamətdə yazılmasına xüsusi diqqət ayrılmalıdır.

Nəticə hissəsinin effektiv olması üçün məqalədə tədqiq edilən problem və yazının məzmunu qısaca oxucunun nəzərinə yenidən çatdırılmalıdır.[50] Ardınca problemin həlli ilə bağlı iddia-bəyanat parafraz edilərək yenidən səsləndirilməli və həmin iddianı dəstəkləyən əsas arqumentlər lakonik şəkildə oxuculara xatırladılmalıdır.[51]

Əlavə olaraq, nəticəni giriş hissəsi ilə əlaqələndirmək onun təsirliliyini artıracaq və məqalənin vahidliyini əks etdirəcəkdir.[52] Məsələn, Jurnalda "Patent və sui generis sistemləri çərçivəsində bitki müxtəlifliliyinin hüquqi mühafizəsi" məqaləsinin giriş hissəsində "Seleksiya nailiyyətləri" haqqında Qanunun qəbul edilməsindən danışılır. Nəticə hissəsində isə yenidən bu

[47] Yenə orada.
[48] Yuxarıda istinad 30, 4.
[49] Hüquq məqaləsinin nəticə hissəsi hansı tələblərə cavab verməlidir? (2018), https://lr.bsulawss.org/bloq/article-conclusion/#parttwo22 (son baxış 20 iyul 2024).
[50] Yenə orada.
[51] Yuxarıda istinad 39, 86-87.
[52] Yuxarıda istinad 30, 4.

Qanuna istinad edilir və müəllif bununla bağlı yekun fikrini bildirir. Beləliklə, yazının əvvəli ilə sonu bir-birinə bağlanmış olur.

### D. Xülasə (annotasiya)

Xülasə məqalə üçün reklam xarakteri daşıyır. Belə ki, əksər oxucular bu 150-300 sözlük hissəyə baxaraq məqaləni oxuyub-oxumayacaqlarına qərar verirlər. Bu baxımdan xülasə hissəsi məqalənin mahiyyətini lakonik və sürətli şəkildə çatdıra bilməlidir. Buna nail olmaq üçün xülasə müəyyən məsələləri əhatə edəcək şəkildə tərtib edilməlidir.[53]

Belə ki, xülasə məqalənin mövzusunu və onun əhəmiyyətini aydın şəkildə çatdıra bilməlidir. Əlavə olaraq, məqalənin hansı metod və yanaşma əsasında yazıldığını da bildirməlidir. Eyni zamanda, məqalənin müvafiq akademik sferaya verəcəyi fayda vurğulanmalıdır.[54]

Sözügedən məsələlərin hər birini öz məzmununda əhatə edən uğurlu xülasə nümunəsinə baxmaqda fayda var. Bunun üçün Jurnalda dərc olunmuş "Subsidiyalar və inkişaf etməkdə olan dövlətlər arasındakı əlaqələrə yenidən baxmaq"[55] məqaləsinin xülasəsindən nümunə kimi istifadə etmək olar.

Qeyd edildiyi kimi, annotasiya əvvəlcə mövzunu təqdim etməli və oxucuları onun əhəmiyyətli olduğuna inandırmalıdır:

*"Subsidiyalar dövlət iqtisadiyyatını inkişaf etdirmək üçün əhəmiyyətli vasitələrdən biri olmaqla yanaşı, Ümumdünya Ticarət Təşkilatı tərəfindən əhatə olunan ən mübahisəli məsələlərdən biridir. Xüsusilə, subsidiyaların ekstraterritorial formalarda mövcud ola bilib-bilməyəcəyi sualı akademiya daxilində qızğın müzakirələrə səbəb olmuşdur."*

---

[53] Writing an abstract, https://www.anu.edu.au/students/academic-skills/research-writing/journal-article-writing/writing-an-abstract (son baxış 20 iyul 2024).
[54] Yenə orada.
[55] Daha ətraflı bax: Səyyad Yusifli, *Subsidiyalar və inkişaf etməkdə olan dövlətlər arasındakı əlaqələrə yenidən baxmaq*, 8 Baku State University Law Review 149, 149 (2022).

Məqalənin xülasəsi bu cümlələrlə mövzunun subsidiyalar, xüsusilə də ekstraterritorial subsidiyalar barədə olduğunu oxucuya çatdırır.

Mövzu təqdim edildikdən sonra oxucuları bu mövzu barədə məqalə yazmağın niyə əhəmiyyətli olduğuna inandırmaq lazımdır:

*"Subsidiyaların rəqabət və ümumilikdə, iqtisadiyyat üzərində təsirini nəzərə alsaq, bu suala mümkün cavabların əhəmiyyəti daha da aydın olur. Əlavə olaraq, "inkişaf etməkdə olan dövlətlər"in statusu hələ də həll edilməmiş olaraq qalır. "İnkişaf etməkdə olan dövlət" hesab olunmaq subsidiya tətbiq etmək imkanlarını artırır. Amma hansı şərtlər daxilində dövlətin "inkişaf etməkdə olan dövlət" hesab olunması mübahisəlidir. Ona görə də inkişaf etməkdə olan dövlətlər üçün kriteriyaların aydınlaşdırılması da vacibdir."*

Bu cümlələrlə mövcud hüquqi sferada bir boşluq vurğulanaraq bunun həll edilməsinin əhəmiyyətli olduğu əks etdirilir. Müəllif müvafiq mövzuda məqalə yazılmasının əhəmiyyətini vurğuladıqdan sonra isə onu hansı yanaşma çərçivəsində yazdığını oxuculara çatdırır:

*"Bu məqalədə subsidiyalar hüquqi və iqtisadi aspektlərdən təhlil edilmişdir, xüsusən, subsidiyaların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına təsirləri müzakirə edilmişdir."*

Son olaraq, müəllif məqalənin hüquqi sferaya necə fayda verdiyini oxuculara göstərməlidir:

*"Subsidiyaların anlayışı və təsirləri araşdırıldıqdan sonra isə Ümumdünya Ticarət Təşkilatının tənzimləməsində və Mübahisələrin Həlli Qurumunun məhkəmə təcrübəsində olan bəzi problemlər araşdırılaraq həmin çatışmazlıqları aradan qaldırmaq üçün təkliflər verilmişdir."*

Məqalənin ən əvvəlində yerləşən xülasə oxucuların diqqətini ilk çəkən hissələrdən biridir. Bu baxımdan xülasə yazının mahiyyətini oxuculara aydın

və təsirli şəkildə çatdırmalı və onları məqaləni davam etdirməyə sövq etməlidir.

## E. Ümumi məsələlər

Məqalənin oxunaqlı və aydın olması üçün bütün hissələrdə nəzərə alınmalı olan bir sıra məqamlar vardır. Bunlardan biri düzgün başlıq seçimi ilə bağlıdır. Başlığa ad seçərkən onun həmin hissədə haqqında danışılanlarla birbaşa əlaqəli olmasına diqqət etmək lazımdır. Belə ki, başlıq aid olduğu mətnin qısa ifadəsi kimi çıxış etməklə onun əsas qayəsini oxucuya çatdırır.[56] Həmçinin nəzərə almaq lazımdır ki, bütün oxucular heç də məqaləni sonadək oxumayacaqlar. Belə ki, oxucular adətən hansısa məqaləyə xüsusi olaraq axtardıqları məlumatı tapmaq üçün müraciət edirlər. Bu səbəbdən, doğru başlıq adlarının seçilməsi oxucuların axtardıqlarını daha asan tapması baxımından vacibdir.[57]

Başlıq daxilində diqqət edilməli əsas məqam isə abzasların düzgün qurulmasıdır. Abzaslar bir-birləri ilə əlaqəli cümlələrin birləşdiyi və vahid fikri ifadə edən struktur elementidir və altında olduqları başlıqların əsas ideyasını izah etmək vəzifəsini daşıyır.[58] Burada nəzərə almaq lazımdır ki, hər abzas maksimum bir arqumenti əhatə etməlidir.[59]

Abzasın oxunaqlı və təsirli olması üçün onun strukturunu düzgün qurmaq vacibdir. Adətən, abzas əsas fikri özündə əks etdirən tematik cümlə ilə başlayır. Daha sonra tematik cümləni izah edən aydınlaşdırıcı cümlə(lər) ilə davam edir. Sonda isə abzas ifadə edilən fikri ümumiləşdirən cümlə ilə yekunlaşır.[60] Tematik, aydınlaşdırıcı və ümumiləşdirici cümlələrin mahiyyətini daha yaxşı anlamaq üçün Jurnalda dərc edilmiş "Sənaye

---

[56] Bryan A. Garner, Legal Writing in Plain English, 33-35 (1st ed. 2001).
[57] Yenə orada.
[58] Richard K. Neumann Jr., Legal Reasoning and Legal Writing, 195-196 (4th ed. 2001).
[59] Garner, yuxarıda istinad 56, 62.
[60] Yenə orada, 62-64.

mülkiyyətinə münasibətdə 1883-cü il Paris Konvensiyası və Azərbaycan qanunvericiliyinin müqayisəli təhlili"[61] məqaləsindəki bir abzası nümunə göstərə bilərik. Müvafiq ardıcıllıqla, cümlələr tematik, aydınlaşdırıcı və nəticə cümləléridir:

*"Qudvil anlayışına digər dövlətlərin qanunvericiliklərində, məsələn, ABŞ qanunvericiliyində də rast gəlmək mümkündür. Belə ki, ABŞ-da vergi qanunvericiliyinin bir hissəsi sayılan Daxili Gəlir Məcəlləsi (İnternal Revenue Code) adlanan sənədin 197-ci paraqrafında qudvilin və digər qeyri-maddi aktivlərin amortizasiyası və hüquqi mühafizəsindən bəhs edilir. Göründüyü kimi, qudvil ABŞ qanunvericiliyində tənzim olunur və onunla bağlı əqli mülkiyyət hüquqları mühafizə altına alınır".*

Hər bir abzasın uzunluğuna nəzarət etmək də vacib məsələlərdəndir. Belə ki, abzasların uzunluğu mətn növünə görə əhəmiyyətli dərəcədə dəyişir. Bununla belə, orta hesabla 150 sözdən çox olmayan abzaslar daha effektiv hesab olunur.[62]

Yazının oxunaqlı və maraqlı olmasının əsas şərtlərindən biri də abzasların daxilindəki cümlələrin düzgün qurulmasıdır. İlk növbədə, cümlələrin oxunaqlı olması üçün lazımsız və təkrar sözlərdən yayınmaq lazımdır. Belə ki, söz çoxluğu yaradan cümlələr təhlil olunan məsələlərin aydın və təsirli şəkildə çatdırılmasına mane olur. Bu baxımdan oxunaqlılığı artırmaq üçün cümlələr mənaya xələl gətirməmək şərti ilə mümkün qədər lakonik formada yazılmalıdır.[63]

Eyni zamanda, cümlələrdə mümkün qədər anlaşıqlı söz və ifadələrdən istifadə olunmalıdır.[64] Müəlliflər bəzən elə hesab edirlər ki, mürəkkəb

[61] Daha ətraflı bax: Fərhad Cahanqoşa, *Sənaye Mülkiyyətinə Münasibətdə 1883-cü il Paris Konvensiyası və Azərbaycan Qanunvericiliyinin Müqayisəli Təhlili*, 7 Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı 168, 179 (2021).
[62] Yuxarıda istinad 56, 107.
[63] Yenə orada, 37-40.
[64] Yenə orada, 58-62.

terminologiya yazını daha "akademik" edərək mükəmməlləşdirir. Buna baxmayaraq nəzərə almaq lazımdır ki, məqaləni hüquqşünas olmayan və ya hüquqi bilikləri aşağı səviyyədə olan şəxslər də oxuya bilər.

Həmçinin məqalənin akademik üsluba aid olduğu da unudulmamalıdır. Bu baxımdan yazıda həddindən artıq qeyri-formal üslubdan istifadə etməmək lazımdır.[65]

Məqalənin hissələrini formalaşdırarkən təsirliliyi təmin etmək üçün qeyd olunan ümumi qaydalara əməl etmək lazımdır. Beləliklə, akademik hüquqi yazı sistemli və maraqlı olmaqla yanaşı, həm də asan başa düşülən olacaqdır.

## III. Yazıdan sonrakı mərhələ

Yazıçı Onore de Balzak bir kitabını yazdıqdan sonra onu bitirmək üçün 27 dəfə redaktə prosesindən keçirmişdir.[66] Bu nümunədən də göründüyü kimi, hətta ən bacarıqlı müəlliflər belə keyfiyyətli bir yazı ərsəyə gətirmək üçün onu tamamladıqdan sonra redaktə etməyə kifayət qədər vaxt ayırmalıdırlar. Belə ki, istənilən yazının ilkin versiyası mükəmməl olmadığından onu daha keyfiyyətli hala gətirmək üçün yazıya yenidən baxış keçirilməsinə ehtiyac vardır. Yazıdakı problemləri aşkarlayıb onları aradan qaldırmaq məhz redaktə prosesində mümkün olacaqdır.[67] Bu, xeyli yorucu və vaxt aparan proses olsa da, keyfiyyətli nəticə əldə edilməsi üçün gərəklidir. Əks təqdirdə yazıda yol verilən istənilən səhv müəllifin reputasiyasına mənfi təsir göstərəcəkdir.[68]

Redaktə mərhələsinin əsas mahiyyəti yazının məzmununu daha aydın və oxunaqlı hala gətirmək, diqqətdən yayınmış məqamları aşkar etmək və qrammatik səhvləri, habelə digər qüsurları aradan qaldırmaqla yazını daha

[65] Yenə orada, 59-62.
[66] Yuxarıda istinad 21, 96.
[67] Yuxarıda istinad 21, 251.
[68] Yenə orada, 96.

da təkmilləşdirməkdir.[69] Həmçinin yazının akademik üslubun tələblərinə uyğunluğunu elə bu mərhələdə müəyyən etmək olar.[70] Ümumilikdə, bu prosesi maddi və texniki redaktə olmaqla iki mərhələyə bölmək mümkündür.[71]

Maddi redaktə dedikdə müəllifin öz arqumentlərindəki məntiqi qüsurları, boşluqları aradan qaldırması, yazının strukturunu təkmilləşdirməsi, plagiata yol verib-vermədiyini yoxlaması və bütövlükdə yazının effektivliyini artırması nəzərdə tutulur.[72] Bu məqsədlə ilk olaraq müəllif öz yazısını başdan-sona yenidən oxumalı və məqalənin düzgün tərtib edilib-edilmədiyini yoxlamaq üçün onun strukturunu (*outline*) ortaya çıxarmalıdır.[73] Bu yolla müəllif yazısındakı çatışmazlıqları daha rahat aşkar edəcək, lazımi əlavə və düzəlişləri tətbiq edərək problemləri aradan qaldıracaqdır.

Eyni zamanda müəllif məqalədəki arqumentlərini də gözdən keçirməlidir. "Təsdiq qərəzi" (*confirmation bias*) adlanan bir psixoloji fenomenə görə, insanlar öz fikirlərini və mövqelərini dəstəkləyən məlumatları görməyə üstünlük verir, mövqelərinə zidd ola biləcək düşüncələrə isə əhəmiyyət vermirlər.[74] Belə ki, müəlliflər məqalə yazarkən adətən qeyri-ixtiyari olaraq yazılarındakı qüsurlara göz yumurlar. Məqalə yazarkən bu psixoloji fenomenin təsiri altına düşməmək və öz yazısını qənaətbəxş hala gətirmək üçün müəllif irəli sürdüyü arqumentlərə əks mövqedən baxaraq qüsurları aşkara çıxarmalıdır.

[69] Revising, Editing and Proofreading, https://ecp.engineering.utoronto.ca/resources/online-handbook/the-writing-process/revising-editing-and-proofreading/ (son baxış 20 iyul 2024).
[70] Nelleke Bak, Guide to Academic Writing, 11 (2003).
[71] Yuxarıda istinad 18, 452.
[72] Yenə orada, 453.
[73] Murniati Bongga, *Increasing Students' Writing Skill in Writing Paragraph through Outline Technique of Second Grade at SMPN 35 Makassar*, 6 Journal of English Language Education 34, 34 (2021).
[74] Raymond Nickerson, *Confirmation Bias: A Ubiquitous Phenomenon in Many Guises*, 2 Review of General Psychology 175, 177 (1998).

Ümumən, maddi redaktə zamanı aşağıdakı suallara əsaslanaraq qiymətləndirmə aparmaq məqsədəuyğundur:[75]

- Yazı mövzu ilə bağlı bütün vacib məqamları əhatə edə bilibmi?
- Müəllifin mövqeyinin əleyhinə səsləndirilə biləcək potensial əks-arqumentlərə cavab verilibmi?
- Yazıda istifadə edilmiş bütün arqumentlər kifayət qədər əhatəli və düzgün əsaslandırılıbmı?
- Arqumentlər arasında məntiqi əlaqə varmı və onlar müəllifin iddia-bəyanatını əsaslandıra bilirmi?
- Yazının məzmunu aydındırmı?

Texniki redaktə zamanı isə cümlələrin oxunaqlılığı artırılmalı, abzaslararası əlaqə gücləndirilməli, qrammatik səhvlər düzəldilməli, akademik (elmi) üslubun tələblərinə diqqət edilməli, habelə istinadların düzgün verilib-verilmədiyi yoxlanılmalıdır.[76] Həmçinin mətnin dəqiq, axıcı və yığcam olmasını təmin etmək, habelə yazını sətir-sətir, sözbəsöz oxumaqla bütün xırda detalların yoxlanılması texniki baxış zamanı həyata keçirilir.

Nəhayət, müəyyən fasilələrlə hər iki redaktə nəticəsində əsaslı düzəlişlər aparılarsa, akademik hüquqi yazının ilk və son versiyaları arasındakı keyfiyyət fərqi nəzərəçarpan dərəcədə olacaqdır.[77] Əlavə olaraq, bu mərhələdə müəlliflərə tövsiyə edilən bəzi məsələlər də vardır. Əvvəla, yazını bitirdikdən sonra onu bir neçə dəfə redaktə etməyə hazır olmaq lazımdır. Belə ki, bütün səhvləri aradan qaldırmaq üçün bir neçə dəfə düzəliş etməyə ehtiyac ola bilər.[78] Həmçinin yazını yüksək səslə oxumaq tövsiyə edilir. Yazını səssiz oxuduqda zehin avtomatik olaraq yazıdakı boşluqları və digər səhvləri

[75] Putman, yuxarıda istinad 1, 243-244.
[76] Yenə orada, 244.
[77] Akademik Hüquqi Yazı Bacarıqlarını Necə İnkişaf Etdirmək Olar? (2022), https://lr.bsulawss.org/bloq/developing-academic-writing-skills/ (son baxış 20 iyul 2024).
[78] Yuxarıda istinad 1, 244.

görməzdən gələ bilər.[79] Son olaraq, yazını qeyri-hüquqşünaslar da daxil digər şəxslərə göstərməklə istər maddi, istərsə də texniki məsələlərlə bağlı şərhlər almaq faydalı olacaqdır.[80] Bu zaman müəllifə təkliflərlə yanaşı, müəyyən tənqidlər də bildirilə bilər. Həmin tənqidlərə əhəmiyyət vermək, eləcə də düzəliş zamanı onları nəzərə almaq lazımdır. Bu səbəbdən hər kəsin fikir və rəylərindən faydalanmaq məsləhət görülür.[81]

Beləliklə, yazıdan sonrakı mərhələ məqalənin nəşrə göndərilməsindən əvvəl həyata keçirilən əhəmiyyətli prosesdir. Bu zaman yazını maddi və texniki baxımdan redaktə etməklə mövcud qüsurları, habelə çatışmazlıqları aşkarlayıb aradan qaldırmaq, nəticədə uğurlu və keyfiyyətli bir iş ərsəyə gətirmək mümkün olacaqdır.

## IV. İstinadlar

Akademik yazılar üçün mühüm tələblərdən biri olan istinadlar müəllifin başqa şəxslərə məxsus ideyaları, nəzəriyyələri, faktları və sübutları öz yazısında istifadə edərək oxuculara təqdim etməsidir. Belə ki, müvafiq mənbələrdən düzgün istifadə akademik yazının təsir gücünü və keyfiyyətini artırır, müəllifin ətraflı araşdırma apardığını göstərir.[82] Əks halda əsər və onun müəllifi haqqında oxucuda mənfi təəssüratlar yarana bilər.

Akademik yazıda istinad vermənin texniki baxımdan müxtəlif üsulları vardır. Bunlara nümunə kimi "*American Psychological Association* (*APA*)", "*Chicago*", "*Modern Languages Association* (*MLA*)" və "*Harvard*" istinad üslublarını göstərmək olar. *BDU Tələbə Hüquq Jurnalına* göndərilmiş məqalələrdə istinadlar Məqalə Tələblərində[83] əksini tapmış istinad

[79] Yenə orada.
[80] Yenə orada.
[81] Yuxarıda istinad 77.
[82] Robert A. Harris, Using Sources Effectively: Strengthening Your Writing and Avoiding Plagiarism, 3 (2017).
[83] Məqalə Tələbləri (2024), https://lr.bsulawss.org/submission/policy/ (son baxış 20 iyul 2024).

qaydalarına uyğun olmalıdır. Bu bölmədə istinadların yazıdakı əhəmiyyətindən, növlərindən və istifadə qaydalarından bəhs ediləcəkdir.

## A. İstinadların əhəmiyyəti

Akademik hüquqi yazının uğurlu olması üçün mövzu ilə bağlı mənbələrin araşdırılması, habelə onların yazıya düzgün və sistemli şəkildə daxil edilməsi zəruridir.[84] Hər bir müəllif akademik hüquqi yazıda müxtəlif mənbələrə istinad etməklə fikirlərin əsaslandırılmasına diqqət yetirməlidir. İstinadlardan istifadə yazının elmi olmasını, inandırıcılığını və düzgünlüyünü təmin edir.[85] Bu baxımdan istinad vermənin əsas prinsipi istifadə edilən arqumentlərin dəstəklənməsidir.[86] Akademik yazıda fikirlərin mənbələr ilə əsaslandırılması araşdırma mərhələsinin uğuru kimi qiymətləndirilir.[87]

Ümumiyyətlə, istinad vermək bir sıra səbəblərdən həm müəllif, həm də oxucular üçün əhəmiyyətli hesab edilir. Əvvəla, müəllif öz fikirlərini daha öncə qələmə alınmış əsərlərə müraciət edərək əsaslandıra və genişləndirə bilər. Bu zaman müqayisəli təhlil aparmaqla digər müəllifə məxsus fikirləri qeyd etmək, yaxud onun əks mövqeyinin niyə yanlış olduğunu göstərmək irəli sürülən arqumenti daha da gücləndirir.[88] Əlavə olaraq, istinadlar oxuculara istifadə edilmiş mənbələri araşdırmaq və yazıda öz əksini tapan fikirlər haqqında daha çox məlumat əldə etmək imkanı verir.[89] İstinad vermə həm də plagiatçılıqdan yayınmaq üçün əhəmiyyətlidir. Qəsdən və ya

[84] Tədqiqatçı kimi Düşünmək: Mənbələrin Toplanması (2022), https://lr.bsulawss.org/bloq/thinking-like-researcher/ (son baxış 20 iyul 2024).

[85] Akademik Hüquqi Yazıda İstinadın Önəmi (2020), https://lr.bsulawss.org/bloq/importance-reference/ (son baxış 20 iyul 2024).

[86] Colin Neville, The Complete Guide to Referencing and Avoiding Plagiarism, 2 (2010).

[87] Carol M. Bast & Margie Hawkins, Foundations of Legal Research and Writing, 271 (5th ed. 2013).

[88] Kathleen McMillan & Jonathan Weyers, How to Cite, Reference & Avoid Plagiarism at University, 59 (2013).

[89] Neville, yuxarıda istinad 86, 11.

istəmədən başqalarının fikirlərini istifadə edib istinad vermədikdə plagiatçılığa yol verilmiş olur. Bunun qarşısını almaq üçün hər bir mənbə dəqiqliklə qeyd olunmalıdır.[90]

## B. İstinadlardan istifadə

Müəllif yazısında hər hansı bir mənbəyə istinad etmək istədiyi zaman həmin mənbənin məzmununu necə əks etdirəcəyinə qərar verməlidir. İstinad etmənin bir sıra yolları, həmçinin hər birinin öz üstünlükləri və mənfi cəhətləri mövcuddur. İstinad vermək üçün aşağıda sadalanan üsullardan istifadə etmək mümkündür:

**1. Sitat gətirmə.** Sitat gətirmə dedikdə mənbədən götürülmüş ifadələrin, cümlələrin birbaşa yazıya daxil edilməsi nəzərdə tutulur. Bu zaman orijinal mənbədən götürülmüş hissə dırnaq işarəsi içərisində verilir.[91] Bu istinad üsulunun əsas məqsədi başqa bir müəllifə məxsus fikirləri elə olduğu kimi təqdim etməklə məlumatların etibarlılığını nümayiş etdirməkdir.

Bəzi hallarda sitat təqdim olunacaq məlumatların müəyyən hissəsini əhatə edir ki, buna qismən sitat gətirmə də deyilir.[92] Bu zaman orijinal mənbədən götürülmüş həmin məlumatın sitat daxilində istifadə olunmayan hissələri "[...]" ilə əvəzlənir, beləcə, müvafiq mətn qısaldılaraq oxucuya təqdim edilir. Məsələn, az əvvəl istifadə etdiyimiz cümləyə bu şəkildə istinad edək:

*"Bu istinad üsulunun əsas məqsədi [...] məlumatların etibarlılığını nümayiş etdirməkdir".*

Bununla belə, yazıda sitatlara həddindən artıq müraciət etmək oxunaqlılığı azalda, həmçinin oxucuda mətnin orijinallığına şübhə yarada bilər.[93] Bu

[90] Elizabeth Henning, Sarah Gravett & Wilhelm van Rensburg, Finding Your Way in Academic Writing, 31 (2nd ed. 2005).
[91] Nigel A. Caplan & Ann M. Johns, Essential Actions for Academic Writing: A Genre-Based Approach, 16-17 (2022).
[92] Integrating Sources in the Text of Your Paper, https://lib.trinity.edu/integrating-sources-in-the-text-of-your-paper/ (son baxış 20 iyul 2024).
[93] Yenə orada.

zaman sitat gətirmə ilə yanaşı digər üsulların da istifadəsi məqsədəuyğun olacaqdır.

**2. Parafraz etmə.** Parafraz müəllifin digər bir şəxsə məxsus fikri öz sözləri ilə ifadə etməsidir. Məsələn, müəllif mətnin hər hansı bir hissəsini götürüb onu öz sözləri ilə yenidən yazarsa, bu zaman parafraz etmiş olacaqdır. Bununla belə, parafraz etmək dedikdə orijinal mənbədəki bir neçə sözün sinonimləri ilə əvəz edilməsi və yaxud cümlədəki söz sırasının dəyişdirilməsi nəzərdə tutulmur.[94] Uğurlu parafraz üçün orijinal mətn diqqətlə nəzərdən keçirilərək tam dərk olunmalı, əsas məqamlar və açar sözlər müəyyən edilməlidir.[95] Daha sonra müəllif əldə etdiyi məlumatlardakı əsas ideyanı öz üslubu ilə yenidən yazmalıdır.

Parafraz adətən sitat gətirmək metoduna alternativ olaraq görülür. Müəllifin təhlil qabiliyyətini göstərmək və axıcılığı qorumaq üçün akademik yazıda sitatlar əvəzinə parafraz etmək daha məqsədəmüvafiq hesab olunur.[96]

**3. Ümumiləşdirmə.** Ümumiləşdirmə isə irihəcmli mənbədəki uzun bir abzasın və ya bölmənin əsas ideyasının qısa şəkildə çatdırılması, həmin məlumatları özündə cəmləşdirən xülasənin təqdim edilməsidir. Ümumiləşdirmədən istifadə edərək yazının həcm cəhətdən qısaldılması ilə yanaşı, bir neçə mənbənin eyni vaxtda yazıya inteqrasiya edilməsi mümkündür.[97]

Bu zaman istinad ediləcək mətn oxunur və mühüm məqamlar qeyd edilir. Seçilmiş hissələrdəki zəruri olmayan nümunələr, faktlar, detallar və s. ixtisar edilir. Sonda əldə edilmiş məlumatlar orijinal yazı ilə müqayisədə daha

---

[94] Paraphrase and Summary, https://www.uc.utoronto.ca/paraphrase (son baxış 20 iyul 2024).
[95] Yenə orada.
[96] Yuxarıda istinad 92.
[97] Paraphrasing, Summarising and Quoting, https://www.student.unsw.edu.au/paraphrasing-summarising-and-quoting (son baxış 20 iyul 2024).

yığcam şəkildə yenidən yazılmaqla təqdim olunur.[98] Məsələn, Kitabçanın "İstinadlardan istifadə" adlı yarımbaşlığını belə ümumiləşdirmək olar:

*"İstinad vermənin birbaşa (sitat gətirmə) və dolayı (parafraz və ümumiləşdirmə) yolları mövcuddur".*

Ümumiləşdirmə ilə parafraz arasındakı əsas fərq əlavə edilən məlumatın təfərrüat səviyyəsindədir. Mahiyyət etibarı ilə ümumiləşdirmə əsas fikirlər saxlanılmaqla ümumi icmalı, parafraz isə mənbənin konkret hissəsinin orijinal detalları saxlanılmaqla daha əhatəli şəkildə təkrar ifadəsini nəzərdə tutur.[99]

# V. Plagiatçılıq

Qanunvericilikdə elmi plagiatın anlayışı "*müəllifini, götürülmə mənbəyini göstərmədən başqasının əsərlərini, elmi kəşf və ixtirasını, səmərələşdirici təklifini, innovasiya məhsulunu tam və ya qismən mənimsəmək, yaxud özününkü kimi təqdim etmək*" kimi verilmişdir.[100] Plagiatçılıq akademik mühitdə "akademik oğurluq" kimi də qəbul olunur.

Başqalarına məxsus əsərləri, ideyaları istinad vermədən istifadə etmək elmi mühitdə plagiatçılıq olaraq qəbul edilir.[101] Eyni zamanda yalnız sözbəsöz eynilik yox, eləcə də ideyaların, xüsusi fərqlənən ifadələrin də istinadsız istifadəsi plagiatçılıq sayılır.[102] Beləliklə, o, başqalarının əqli mülkiyyət hüquqları ilə qorunan əməyinin mənimsənilməsi və müəllifinin kim olması barədə yalan məlumatın verilməsini ehtiva edir. Buna görə də plagiatçılıq akademik etikanın kobud surətdə pozulmasına səbəb olur.[103] Plagiatdan istifadənin yolverilməzliyinə başqa bir səbəb isə onun oxucuda yanlış

[98] Yenə orada.
[99] Yuxarıda istinad 94.
[100] "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 1.0.23 (2016).
[101] Henning, Gravett & Rensburg, yuxarıda istinad 90.
[102] Bast & Hawkins, yuxarıda istinad 87, 288.
[103] Harris, yuxarıda istinad 82, 89.

təsəvvür formalaşdırmasıdır. Belə ki, bəzən mühüm iddialar irəli sürülərkən müvafiq istinadlar verilmir və oxucu ideyanın müəllifə məxsus olduğunu düşünərək aldanmış olur. Həmçinin bununla oxucuların müəllifə olan inamı da itir və nəticə etibarilə müəllifə inam xeyli azalır.[104] Bundan əlavə, istənilən akademik yazı dərc olunmazdan öncə redaktorlar tərəfindən yoxlanılır. Bu prosesdə istinadların doğruluğuna və dəqiq ünvanına diqqət edilir. Nəticədə, akademik yazıda plagiat hallarının aşkarlanması onun dərc olunmasından imtinaya səbəb olur.[105]

Plagiatçılığın bir sıra növləri fərqləndirilir. Onlardan biri olan "birbaşa plagiat" başqasına məxsus ideyaların heç bir fərq olmadan sözbəsöz köçürülməsini ehtiva edir.[106] "Özünə plagiat" müəllif daha əvvəl dərc etdiyi yazısının üzərinə əlavələr edərək onu yeni kimi təqdim etdiyi halda baş verir.[107] "Mozaik plagiat" əsl mənbəyə heç bir istinad vermədən ifadələrin sinonimləri ilə əvəz olunaraq təqdim edilməsidir.[108] "Təsadüfi plagiat" isə müəllifin akademik yazıda riayət edilməli etik məsələlərdən xəbərsiz olduğu, habelə istinad etməyə etinasız yanaşdığı və ya necə istinad edəcəyini bilmədiyi hallarda baş verir.[109]

Bütün bunları nəzərə alaraq yazıda plagiatdan yayınmaq labüddür və bunun üçün bir sıra tələblərə əməl etmək tövsiyə olunur. Əvvəla, əgər yazıda başqalarının ideyalarından istifadə olunubsa, müraciət edilmiş bütün mənbələr səhifənin aşağısında ("footnote"-da) göstərilməlidir.[110] Bu zaman

[104] Yuxarıda istinad 21, 259.
[105] 6 Reasons Why Citation of Sources is Important When Writing (2016), https://falconediting.com/en/blog/6-reasons-why-citation-of-sources-is-important-when-writing (son baxış 20 iyul 2024).
[106] Plagiarism, https://www.sciencedirect.com/topics/social-sciences/plagiarism (son baxış 31 iyul 2024).
[107] Yenə orada.
[108] Miguel Roig, Avoiding Plagiarism, Self-plagiarism, and Other Questionable Practices: A Guide to Ethical Writing, The Office of Research Integrity, 6 (2003).
[109] Roka, yuxarıda istinad 106, 3-4.
[110] Yuxarıda istinad 21, 260.

xeyli sayda istinad verməkdən çəkinməyə ehtiyac yoxdur. Əksinə, onların çox olması işin dürüst tərtib olunmasına işarə edir.[111] Əlavə olaraq, yazıda başqa müəlliflərin düşüncələrindən olduğu kimi istifadə olunarsa, bunu dırnaq işarəsi ilə və ya parafraz edərək göstərmək zəruridir.[112] Bundan başqa, akademik yazıda şəxslərə istinad verməyə gərək yoxdur. Belə ki, yazıda "X-in müəllifi olduğu məqalənin iddiasının yanlış olduğu qənaətindəyik" kimi ifadələrin təkrarlanması tavtologiyaya səbəb olur.[113]

Nəticədə, yazıda istifadə ediləcək mənbələrin oxuculara təqdim olunması ilə bağlı sabitləşmiş elmi kriteriyalara düzgün əməl etmək zəruridir. Bu zaman uğurlu istinad yazının müəyyən araşdırmaya əsaslandığını göstərdiyindən plagiatçılığa yol vermə riskindən rahatca yayınmaq mümkün olacaqdır.[114]

# Nəticə

Bu Kitabçada akademik hüquqi yazının mahiyyəti izah edilmiş və keyfiyyətli hüquqi yazının ərsəyə gətirilməsi üçün atılan addımlar əks olunmuşdur. Tədqiqat probleminin seçilməsi və iddia-bəyanatın formalaşdırılmasından tutmuş plagiatçılığın qarşısının alınmasına qədər keyfiyyətli akademik hüquqi yazının ərsəyə gətirilməsi üçün zəruri olan bütün məsələlərə toxunulmuşdur. Eyni zamanda fikirlərin oxucular üçün daha aydın olması məqsədilə Tələbə Hüquq Jurnalının 10 illik təcrübəsinə əsaslanan nümunələr verilmişdir. Arzu edirik ki, ölkədə bu sahə üzrə ilk sistemli nəşr olan Kitabça akademik mühitə öz töhfəsini verəcəkdir.

[111] Yenə orada.
[112] Yenə orada.
[113] Yenə orada, 261.
[114] Yenə orada, 260.